UOT 339.1

*Kamran Rauf oğlu NƏBİZADƏ*
*doktorant, Bakı Biznes Universiteti*
*E-mail: nebizadek@gmail.com*

# AZƏRBAYCANIN POSTSOVET ÖLKƏLƏRİ İLƏ TİCARƏT ƏLAQƏLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

***Xülasə***

**Tədqiqatın məqsədi:** Azərbaycan Respublikası öz dövlət müstəqilliyini əldə etdikdən sonra dünya birliyinin bərabərhüquqlu üzvü kimi beynəlxalq iqtisadi münasibətlərin yaratdığı imkanlardan faydalanmaq məqsədi ilə xarici iqtisadi əlaqələri inkişaf etdirməyə və bu əsasda fəal surətdə dünya təsərrüfat sisteminə inteqrasiya olunmağa can atmışdır. Beynəlxalq bazarda rəqabət aparılması ilk öncə eyni ildə müstəqilliklərini qazanmış postsovet ölkələri ilə iqtisadi əlaqələrin inkişaf etdirilməsindan başlayır.

**Tədqiqatın metodologiyası** - ölkənin xarici iqtisadi əlaqələrinin inkişaf istiqamətlərinin müqayisəli təhlili və inkişafı, eləcə də bu əlaqələrin formalaşması, xarici ticarət dövriyyəsinin stimullaşdırılmasına aid metodoloji yanaşmalar və bir çox tədqiqatçıların elmi fikirləri aiddir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti:** Xarici ticarət dövriyyəsinin stukturunu və balansını araşdırdıqda görmək olar ki, ölkəmizin ümumi ticarət balansı heç də müsbət olmamışdır. Bu baxımdan xarici iqtisadi əlaqələrin fəaliyyətinin daha səmərəli istiqamətlərinin təşkili, optimal praqnozlaşdırılması və əsasən ixracyönümlü siyasətin həyata keçirilməsi Azərbaycan iqtisadiyyatı üçün, eyni zamanda işğaldan azad olunmuş ərazilərdə yeni investisiyaların cəlb olunmasını mümkün edir.

**Tədqiqatın nəticələri:** Bazarda rəqabət mühitinin daha da sağlamlaşdırılması, maliyyə resurslarına və dünya bazarına çıxış imkanlarının asanlaşdırılması və digər istiqamətlərdə kompleks işlərin görülməsi təklif edilir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:** tədqiqat işində bir çox tədqiqatçıların elmi əsərlərinə istinad olunmuşdur. Eyni zamanda tədqiqat işində iqtisadi əlaqələrin uyğun istiqamətlərini tapmaqla xarici-iqtisadi əlaqələrin modelinin genişləndirilməsi, ixracyönümlü məhsulların idxalının məhdudlaşdırılması üsulları qeyd edilmişdir.

***Açar sözlər: xarici iqtisadi əlaqələr, idxal-ixrac, sosial infrastruktur, beynəlxalq iqtisadi əlaqələr, xarici investisiyalar, postsovet ölkələri.***

## *Giriş*

Xarici ölkələrlə iqtisadi əlaqələrin inkişaf etdirilməsi və yüksək effektli sivil bazar münasibətlərinin formalaşması, xüsusilə qloballaşma şəraitində mühim əhəmiyyət kəsb edir. Azərbaycan hazırda dünyanın 150-dən çox ölkəsi ilə siyasi və iqtisadi münasibətlərə malikdir. İqtisadi coğrafi mövqeyə, eləcə də təbii sərvətlərinə görə çox əlverişli mühitə malik olan Azərbaycan Respublikası xarici əlaqələrini ticarət, investisiya və xarici miqrasiya istiqamətində tədqiq edir. Bu iqtisadi əlaqələrin yaranması ilk növbətə iqtisadi münasibətlərin qurulmasından asılıdır.

1991-ci ildə müstəqilliyini əldə etmiş ölkə xarici iqtisadi münasibətlərini genişləndirməklə beynəlxalq arenada tanınmış və bir sıra müqavilələrə qoşulmuşdur. Ulu öndər Heydər Əliyev tərəfindən aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində ölkə iqtisadiyyatının inkişafında böyük təkan yarandı və bir çox ölkələrlə xarici iqtisadi münasibətlər quruldu. Bu münasibətlərin strukturuna baxsaq Azərbaycanın  xarici iqtisadi əlaqələrinin 50%-dən çoxu Avropa ölkələrinin, əsasən də postsovet ölkələrinin payına düşür. Bu da onu göstərir ki Respublikamız müztəqillik əldə etdikdən sonra Avropaya inteqrasiya etmiş və beynəlxalq əlaqələrini inkişaf etdirmişdir.

***Tədqiqatın əsas məzmunu***

90-cı illərin əvvəllərində keçmiş xammal tədarükçüləri və hazır məhsul istehlakçıları itirildikdə, xarici ticarət əlaqələrinin həyata keçirilməsi sahəsində daha qəti tədbirlər tələb olunurdu. O

dövrdə, bu sahədə başlıca hadisə “Azərbaycan Respublikasında xarici ticarətin liberallaşdırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 05 aprel 1994-cü il tarixli 125 nömrəli Fərmanı idi. Bu Fərmana uyğun olaraq strateji malların bütün hüquqi şəxslərə ixracına icazə verildi. Müstəqilliyin ilk illərində baş verən böhranı aradan qaldırmaq üçün böhran əleyhinə tədbirlər hazırlandı və qısa müddətdə uğurla həyata keçirilməsi ölkədə siyasi və iqtisadi sabitliyin yaranmasına və 1997-ci ildən başlayaraq ÜDM-in artmasına səbəb oldu. Ölkədə bazar iqtisadiyyatı institutları yaradıldı, “Azəri-Çıraq-Günəşli”, “Şahdəniz”, “Bakı-Tbilisi-Ceyhan”, “Bakı-Supsa”, “Bakı-Tbilisi-Ərzurum” kimi layihələrin başlanması TRACEKA və TANAP və s. Respublikanın iqtisadiyyatına xarici investisiyaların intensiv axını 2010-cu ildən bəri müşahidə olunur. Bu il üçün bütün investisiyaların həcmində xarici investisiyaların payı 46.9% idisə 2015-ci ildən bəri bir böyümə tendensiyasına sahib olmuş və 2019-cu ildə 70%-i keçmişdir.[4]

Azərbaycan Ermənistan istisina olmaqla digər 13 postsovet ölkəsi ilə iqtisadi əlaqələr qurur və bu ölkələrin Respublikamızın ümumi ticarət dövriyyəsindəki payı 20 faiz təşkil edir. Məlumat üçün qeyd edim ki, Azərbaycanın ümumi ticarət dövriyyəsi 24 471 287 min ABŞ dolları təşkil edir ki, onun da 4 685 977 min ABŞ dolları postsovet ölkələrinin payına düşür. Aydındır ki, birinci sırada Rusiya Fedarasiyası dayanır (2 671 545,8 min ABŞ doları), digər ardıcıllıqla - Ukrayna (771 500,4 min), Gürcüstan (536 218,1 min), Belarus (313 163,7 min), Qazaxıstan (142 027,5 min), Türkmənistan (108 774,8 min), Özbəkistan (82 318,4 min), Litva (24 441,5 min), Latviya (12 673,3 min), Moldova (7 821,8 min), Qırğızıstan (5 417,8 min), Tacikistan (5 237,7) və Estoniya (4843,5 min) yer alır. Göründüyü kimi, Azərbaycan Respublikasının idxal və ixrac əməliyyatlarının böyük bir hissəsi Rusiya Federasiyasının payına düşür. İkinci və üçüncü yerlərdə uyğun olaraq Ukrayna və Gürcüstan respublikaları durur. [6]

***Cədvəl 1.***

***2017-2020-ci illər Azərbaycanın xarici ticarət dövriyyəsi***

| **Ölkələr** | **Ümumi ticarət dövriyyəsi (min.ABŞ dolları)** | | | |
|---|---|---|---|---|
| | **2017** | **2018** | **2019** | **2020** |
| **Cəmi** | **24263757.2** | **31782697.4** | **33065322.2** | **24201131.7** |
| Belarus | 147700.6 | 203665.5 | 227263.2 | 313163.7 |
| Qazaxıstan | 142099.9 | 220744.7 | 229601.7 | 142027.5 |
| Qırğızıstan | 1760.2 | 6082.8 | 5801.3 | 5417.2 |
| Moldova | 6993.8 | 6688.8 | 7880.3 | 7821.8 |
| Özbəkistan | 30000.6 | 43948.4 | 81962.8 | 82318.4 |
| Rusiya | 2141121.1 | 2550162.7 | 3022045.4 | 2671545.8 |
| Tacikistan | 2045.8 | 6587.2 | 3160.8 | 5237.7 |
| Türkmənistan | 164135.7 | 133042.7 | 225652.1 | 108774.8 |
| Ukrayna | 889181.2 | 828532.3 | 807610.2 | 771500.4 |
| Gürcüstan | 561905.5 | 592324.2 | 659027 | 536218.1 |
| Latviya | 15061.4 | 22386.5 | 12657.6 | 12673.3 |
| Litva | 26190.4 | 22062.3 | 21642.0 | 24441.5 |
| Estoniya | 3226.6 | 5054.6 | 4736.5 | 4843.5 |

*Mənbə: https://www.stat.gov.az/*

Cədvələ əsasən Azərbaycanın əsas tərəfdaş olduğu ölkə Rusiya Fedarasiyasıdır ki, bu ölkənin payı digər 12 ölkənin payına düşən ticarət dövriyyəsindən çoxdur. Yalnız Ermənistan istisna olmaqla digər postsovet ölkələrinin ticarət dövriyyəsi ümumilikdə Azərbaycanın ticarət dövriyyəsinin 19%-ni təşkil edir. Qeyd etmək lazımdır ki, Azərbaycanın bu ölkələrlə xarici ticarət dövriyyəsi əvvəlki illərlə (Məsələn 2005, 2006-cı illərdə bu ölkələrin xüsusi çəkisi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 22,23%-ni təşkil edirdi) müqayisədə azalmışdır. Lakin son dörd ildə xarici ticarət dövriyyəsinin payı ümumilikdə artmışdır. Belə ki, 2017-ci ildə Azərbaycanın bu ölkələrlə xarici ticarət dövriyyəsi ümumi ticarət dövriyyəsinin 17%-i, 2018-ci ildə 14,5%-i, 2019-cu ildə

16,2%-i və 2020-ci ildə isə 19%-ni təşkil etmişdir. Ticarət dövriyyəsinin çəkisi isə ötən illə müqayisədə 1,4 dəfə azalmışdır. Bunun da əsas səbəbi əvvəllər MDB ölkələri müstəqillik qazandıqdan sonra yalnız postsovet və qonşu ölkələrlə iqtisadi əlaqələr qururdusa, indi Azərbaycan daxil olmaqla hər bir ölkə öz beynəlxalq əlaqələrini artırmışdır. Nəzərə alsaq ki, Azərbaycanın böyük iqtisadi əlaqələri olan qonşu Türkiyə, İtaliya və Almaniya kimi ölkələr vardır ki, onların ticarət dövriyyəsindəki xüsusi çəkisi çoxdur. Bundan başqa, 2019-cu ilin mart ayından “COVİD 19” pandemiyasının başlaması da Azərbaycanın xarici iqtisadi əlaqələrinə təsir etdi.

Azərbaycan-Rusiya münasibətləri həm siyasi, həm də iqtisadi sahədə geniş şəkildə inkişaf etməkdədir. Bu qarşılıqlı əməkdaşlıqların tarixi və iqtisadi bağlılığı vardır ki, onların bir çoxu hələ də öz aktuallığını qoruyub saxlayır.

Ümumiyyətlə, Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin çoxşaxəli istiqamətləri mövcud olub. Məhz son bir neçə ildə Rusiya ilə Azərbaycan arasında 50-ə yaxın iqtisadi sahədə sənəd imzalanıb [5]. Yaradılmış möhkəm hüquqi baza iqtisadiyyat, o cümlədən ticarət, kənd təsərrüfatı, yanacaq-energetika, elm və təhsil, mədəniyyət, idman və digər sahələrdə əlaqələrin genişləndirilməsinə imkan verib.

Rusiyadan Azərbaycana siqaret, kənd təsərrüfatı və qida məhsulları, benzin, polad və dəmir məmulatlar, ağac məmulatları, tikinti materialları, kimya məhsulları, dərman, istehlak məhsulları, avtomobil mühərrikləri, borular və diri ev heyvanları idxal olunur. Azərbaycandan Rusiya Federasiyasına isə əsasən kənd təsərrüfatı məhsulları, təbii qaz, kerosin, kimya məhsulları, borular, spirtli içkilər və mineral sular ixrac olunur. Onu da qeyd etmək lazımdır ki, pomidor, xurma və fındıq idxalında Azərbaycan Rusiyanın əsas ticarət tərəfdaşıdır.

1992-ci ildə Azərbaycan Respublikası Qazaxıstan, Moldova, Tacikistan, Türkmənistan, Ukrayna və Baltik ölkələri ilə sosial-iqtisadi və diplomatik münasibətlər qurmuşdur. Ölkəmizə əsasən meyvə, meyvə şirələri, neft məhsulları, sürtgü yağları, mebellər, bitki yağı, ağ şəkər və kimyəvi cəhətdən təmiz digər saxaroz və plastik məmulatları ixrac, bəzi emal olunmuş neft məhsulları, buğda, şüşə qablar, dərman pereparatları, mal əti, mineral və qazlı sular, kənd təsərrüfatı məhsulları və iribuynuzlu mal-qara idxal olunur.

1993-1995-ci illərdə Azərbaycan Respublikası Belarusiya, Özbəkistan, Qırğızıstan Respublikaları arasında iqtisadi və diplomatik münasibətlərin qurulmasına başlamışdır. Dövlət Azərbaycandan bu ölkələrə neft məhsulları, tütün, alüminium materiallar, polietilen və digər kimya məhsulları, şokolad məmulatları, meyvə şirələri, bentonit gili, şəkər və saxaroza, maye sayğacları, heyvan və bitki mənşəli piylər, reaktiv mühərriklər üçün kerosin yanacağı ixrac edir, traktorlar, taxta və ağac materialları, qazma maşınlarının ehtiyat hissələri, dərman vasitələri, tibb avadanlığı, plastik məmulatlar, soyuducular, elektrik naqilləri, qurudulmuş üzüm, yumşaq buğda, yer fıstığı, xam ipək, avtomobil hissələri, qida və kənd təsərrüfatı məhsulları isə idxal olunur.

Yaxın qonşumuz olan Gürcüstan Respublikası və Azərbaycan ilə 1996-cı il mart ayında dostluq və əməkdaşlıq münasibətləri qurulmuşdur. Ölkələrarası ticarət dövriyyəsində digər postsovet ölkələri ilə müqayisədə kəskin dərəcədə fərq var. Belə ki, 2020-ci ilin statistikasına əsasən idxal olunan məhsulların xüsusi çəkisi 74.29 mln ABŞ dolları, ixrac olunan məhsulların xüsusi çəkisi isə 461.92 mln ABŞ dolları təşkil edir [7]. Bu da ixrac-idxal əməliyyatında müsbət saldonun olduğunu kəskin dərəcədə bildirir. Azərbaycandan Gürcüstana benzin, dizel yanacağı, təbii qaz, ağ neft, bitum, mazut, un və un məmulatları, bitki yağı və s. məhsullar ixrac olunur. Gürcüstandan Azərbaycana sement, şlak, dross, yanıq dəmir və qara metal emalının digər tullantıları, mineral və qazlı sular, alkoqolsuz içkilər, iribuynuzlu mal-qara, pərakəndə satış üçün qablaşdırılmış halda dərman vasitələri və s. məhsullar idxal olunur.

Beləliklə, 13 postsovet ölkəsindən yalnız 3 ölkə - Tacikistan, Gürcüstan və Belarus respublikaları ilə ticarət dövriyyəsində 2020-ci ildə müsbət saldo qeyd olunmuşdur, digər ölkələrlə olan ticarət əlaqələrimizdə idxalın ümumi çəkisi ixracdan çox olduğu üçün mənfi saldo qeyd olunmuşdur. Lakin son illər qeyri-neft sekoruna ayrılan investisiyalar, eləcə də işğaldan azad olunmuş ərazilərə dövlət qayğısının artırılması və bu ərazilərdə ağıllı şəhərciklərin, emal müəssisələrinin

yaradılması postsovet ölkələrinə maraq yaratmışdır. Bu ölkələrin Qarabağa olan diqqəti və investisiya mühitinin onlar üçün əlverişli olması ölkə ÜDM-nin də artmasına gətirəcəkdir.

### *Nəticə*

Aydın məsələdir ki, bu ölkələrin son 20 ildə qarşılıqlı ticarət əlaqələrini qurmaqla İnkişaf Etmiş Ölkələrə inteqrasiya etməsi bu ölkələrdə istehsal olunan məhsulların texnoloji əsasının artmasına və qlobal dəyər zəncirinə qoşulmasına imkan yaratmışdır. Təcrübə göstərir ki, əksər inteqrasiya olunmuş birliklər üçün dominant iştirakçı əsasında inteqrasiya əsas xarakterik olmuşdur. Məsələn, NAFTA-da inteqrasiyanın lokomotivi kimi ABŞ, Avropa Birliyində Almaniya, Avrasiya iqtisadi birliyində isə Rusiya əsas rolu oynayır.

Qloballaşma kontekstində xarici iqtisadiyyat ölkə iqtisadiyyatının inkişafı və şaxələndirilməsində mühüm bir sistem və quruluş yaradan amil kimi qəbul edilməlidir. Bu baxımdan, ölkələr arasındakı xarici iqtisadi əlaqələrin təhlili və qiymətləndirilməsi əhəmiyyətli ehtiyatların ayrılmasına imkan verir.

Postsovet ölkələrinin inteqrasiya potensialının yüksək olmasına baxmayaraq, blokdaxili əməkdaşlığın inkişafının kifayət qədər problemləri qalmaqdadır. Bu ölkələrin əhalisi planetin əhalisinin 6%-ni, sənaye potensialı dünya sənaye potensialının təxminən 10%-ni təşkil edir. Dünyanın əsas növ təbii ehtiyatlarının 25%-i postsovet ölkələri ərazisində yerləşir. Eyni zamanda, qeyd olunmalıdır ki, XX əsr ərzində postsovet ölkələri əhəmiyyətli industrial inkişaf yolu keçmiş, elmi-texniki və intellektual potensial inkişaf etmişdir. Bu ölkələrin formalaşan qlobal iqtisadiyyatda mövqelərinin gücləndirilməsi imkanları böyükdür, bu imkanlardan qarşılıqlı maraqlara uyğun istifadə olunması inteqrasiya əməkdaşlığının ən aktual mövzularıdır.

### ƏDƏBİYYAT


1. Əvəz Bayramov. “Regional iqtisadi inteqrasiya: nəzəriyyə və praktika”. Bakı, 1997.
2. Azərbaycanın xarici ticarət əlaqələri. /Azərbaycan Respublikasının Dovlət Statistika Komitəsi tərəfindən hazırlanmış statistik məcmuələr, 2017-2020. http://www.stat.gov.az/source/trade/
3. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) /məqalələr toplusu/. Bakı: “Poliart” MMC, 2017 s.522.
4. Yadigarov T.A. “Gömrük statistikası və müasir informasiya texnologiyaları”. Bakı, «Avropa» nəşriyyatı, 2020,-550 səh.
5. М.Кротов (Санкт-Петербург). “Экономического интеграция стран СНГ: проблемы и перспективы” РЭЖ № 1, 2010.
6. Azərbaycanın postsovet ölkələri ilə xarici əlaqələrinin qurulması. 2020. http://www.mfa.gov.az/
7. Qəzet: “Gömrük xəbərləri” 2020.
8. http://www.economy.gov.az/
9. http://www.cisstat.org



***Камран Рауф оглы Набизаде***
***докторант Бакинский Университет Бизнеса***
***E-mail: nebizadek@gmail.com***


### Основные направления торговых отношений Азербайджана с постсоветскими странами


***Резюме***

**Цель исследования**. После обретения государственной независимости Азербайджанская Республика, как равноправный член мирового сообщества, стремилась развивать внешнеэкономические связи и активно интегрироваться в мировую экономическую систему с целью использования возможностей, созданных международные экономические отношения. Конкуренция на международном рынке начинается с развития экономических отношений с постсоветскими странами, получившими независимость в том же году.

**Методология исследования -** это сравнительный анализ и развитие внешнеэкономических связей страны, а также методологические подходы к стимулированию внешнеторгового оборота и научные взгляды многих исследователей.

**Практическая значимость исследования:** Практическая значимость исследования: Изучив структуру и баланс внешнеторгового оборота, можно увидеть, что общий торговый баланс нашей страны отнюдь не был положительным. С этой точки зрения возможно привлечение новых инвестиций на освобожденные территории с целью организации более эффективных направлений внешнеэкономических связей, составления оптимальных прогнозов и реализации преимущественно экспортно-ориентированной политики.

**Результаты исследования:** Предлагается дальнейшее усиление конкурентной среды на рынке, облегчение доступа к финансовым ресурсам и мировому рынку, а также проведение комплексной работы по другим направлениям.

**Оригинальность и научная новизна исследования:** Оригинальность и научная новизна исследования: Исследование относится к научным работам многих исследователей. В то же время в исследовании выделяются пути расширения модели внешнеэкономических связей за счет поиска соответствующих сфер экономических отношений, ограничения импорта экспортно-ориентированной продукции.

***Ключевые слова: внешнеэкономические связи, импорт-экспорт, социальная инфраструктура, международные экономические отношения, иностранные инвестиции, постсоветские страны.***

***Kamran Rauf Nabizadeh***
***Ph.D. student, Baku Business University,***
***E-mail: nebizadek@gmail.com***

**Maın dırectıons of azerbaıjan's trade relatıons wıth post-sovıet countrıes**

***Summary***

**The purpose of the research:** After gaining its state independence, the Republic of Azerbaijan, as an equal member of the world community, sought to develop foreign economic relations and actively integrate into the world economic system in order to take advantage of the opportunities created by international economic relations. Competition in the international market begins with the development of economic relations with the post-Soviet countries, which gained independence in the same year.

**Research methodology -** a comparative analysis and development of the country's foreign economic relations, as well as methodological approaches to the stimulation of foreign trade turnover and the scientific views of many researchers**.**

**The practical importance of the research**: Examining the structure and balance of foreign trade turnover, it can be seen that the overall trade balance of our country has not been positive at all. From this point of view, it is possible to attract new investments in the liberated territories in order to organize more efficient areas of foreign economic relations, make optimal forecasts and implement mainly export-oriented policies.

**The results of the research**: It is proposed to further strengthen the competitive environment in the market, facilitate access to financial resources and the world market, and to carry out comprehensive work in other areas.

**The originality and scientific novelty of the research:** The research refers to the scientific works of many researchers. At the same time, the research highlights ways to expand the model of foreign economic relations by finding appropriate areas of economic relations, to limit the import of export-oriented products.

***Key words: foreign economic relations, import-export, social infrastructure, international economic relations, foreign investment, post-Soviet countries.***